**MOLDOVA RESPUBLİKASI**
**AUDİOVİZUAL KOORDİNASİYA ŞURASI**
və
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ TELEVİZİYA VƏ RADİO ŞURASI**

arasında

# ƏMƏKDAŞLIQ RAZILAŞMASI

Bundan sonra "Tərəflər" adlanacaq, bir tərəfdən Şura üzvü, *cənab Artur Kozmanın* timsalında Moldova Respublikası Audiovizual Koordinasiya Şurası (CCA), və digər tərəfdən Şura sədrinin müavini, *cənab Qafar Cəbiyevin* timsalında Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası (NTRC)

Sərhədsiz Televiziya üzrə Avropa Konvensiyasının məqsəd və prinsiplərini, həmin konvensiyada təsbit olunmuş azad informasiya və ideya axını üçün audiovizual sahənin böyük əhəmiyyəti ilə əlaqədar tövsiyyələrini rəhbər tutaraq;

Moldova Respublikası Audiovizual Koordinasiya Şurası (CCA) və Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası (NTRC) arasında əməkdaşlığın inkişafı və güclənməsi üçün və nəticədə Tərəflərin öz vəzifələrini effektiv həyata keçirməyə kömək edəcək olan bu "Razılaşma"nı imzalayırlar.

- Yayımın tənzimlənməsi vəzifələlərinin effektiv həyata keçirilməsi üçün təcrübə, informasiya mübadiləsinin və daimi məsləhətləşmələrin tələb olunduğunu nəzərə alaraq;
- qarşılıqlı hörmət və inam, həmçinin, səmərəli əməkdaşlıq prinsiplərinə əsaslanaraq və hüquqi səlahiyyətlər çərçivəsində fəaliyyət edərək,

Tərəflər aşağıdakılar ilə razılığa gəlirlər:

## Maddə 1

Tərəflər qanunların, qaydaların və audiovisual sahədə olan digər aspektlərin qavranılmasının inkişaf etdirilməsi məqsədilə yayım standartlarının hüquqi fəalıiyyəti, bu sahədə metodik və metodoloji məsələlər ilə bağlı informasiyanın qarşılıqlı mübadiləsini təmin edirlər.

## Maddə 2

Tərəflər öz nümayəndələrinin digər tərəfin təşkil etdiyi toplantı, seminar, təlim, treninq və başqa beynəlxalq tədbirlərdə iştirakı ilə qarşılıqlı mübadiləsini həyata keçirir.

## Maddə 3

Tərəflər ümumi maraq mövzularında qarşılıqlı məsləhətləşmələr aparır, audiovisual medianın tənzimlənməsi, lisenziyalaşdırılması, monitorinqi və digər əlaqəli məsələlər ilə bağlı təcrübə mübadiləsi edirlər.

**Maddə 4**

Bu Razılaşmanın tələblərinin həyata keçirilməsi məqsədilə, aralarında digər razılıq olduğu hallar istisna olmaqla, Tərəflər öz nümayəndələrinin, əməkdaşlarının, təcrübəçilərinin nəqliyyat, yerləşmə, rabitə və digər xərclərini öz üzərinə götürürlər.

**Maddə 5**

Tərəflərin müştərək fəaliyyətinin nəticələri onların ümumi nailiyyəti (irsi) sayılır. Bu nəticələrin yayımlanmasına və paylaşılmasına məhdudiyyətlər milli qanunvericilikdə nəzərdə tutulduğu və ya Tərəflərin bu sahədə digər razılıqlarının mövcudluğu halında tətbiq oluna bilər.

**Maddə 6**

Bu Razılaşmanın 1-ci və 6-cı maddələrində göstərilən və fəaliyyət mübadiləsi predmeti olan informativ materiallar yalnız Tərəflərin yazılı razılığı olduğu halda yayımlana bilər.

**Maddə 7**

Bu Razılaşmaya əlavə və dəyişikliklər yalnız Tərəflər arasında olan yazılı anlaşma nəticəsində edilə bilər.

**Maddə 8**

Tərəflər başa düşürlər ki, Bu Razılaşma onlar arasında məcburi hüquqi bağlar yaratmır. Lakin, Razılaşmadan gələn öhdəliklərin yerinə yetirilməsi üçün mümkün vasitələrdən istifadə edəcəklərini üzərilərinə götürürlər.

**Maddə 9**

Bu Razılaşma imzalandığı andan etibarən qüvvəyə minir və Tərəflərdən biri Razılaşmaya xitam vermək qərarını verənədək qüvvədə qalır. Tərəflərdən birinin bu Razılaşmaya xitam verməsi ən azı 30 gün öncə qarşı tərəfi məlumatlandırdıqdan sonra mümkün olur. Bu müddət bitdikdə, Razılaşma qüvvədən düşmüş hesab olunur.

Razılaşma Bakı şəhərində, 19 oktyabr 2017-ci il tarixdə, ingilis dilində imzalanmışdır.

**MOLDOVA RESPUBLIKASI AUDIOVIZUAL KOORDINASIYA ŞURASI** adından

**Artur Kozma**
*Şura üzvü*

**AZƏRBAYCAN RESPUBLIKASI MILLI TELEVIZIYA VƏ RADIO ŞURASI** adından

**Qafar Cəbiyev**
*Şura Sədrinin müavini*